UOT: 634.11:631.1:8:635

# ALMA SORTLARININ İQTİSADİ SƏMƏRƏLİLİYİNƏ CƏRGƏ ARASI TORPAĞIN SAXLANMASI ÜSULLARININ TƏSİRİ

**T.C.KƏRİMOV**
**AKTN Meyvəçilik və Çayçılıq ET İnstitutu**

*Azərbaycanda bağçılıq sahələrinin özəlləşdirilməsi məhsuldar alma bağlarından yüksək və sabit məhsul götürülməsi, bağçılıq mədəniyyətinin artırılması, meyvə bağlarında kompleks aqrotexniki tədbirlərin elmi əsaslarla təsərrüfatlara geniş tətbiqindən asılıdır.*

*Meyvə bağlarından yüksək məhsul əldə etmək üçün kompleks aqrotexniki tədbirlər içərisində bağlarda cərgəarası torpağın saxlanması, gübrələnməsi, suvarılması və s. mühüm əhəmiyyətə malikdir. Bağçılığın intensiv yolla inkişafı yeni meyvə bağlarının salınması, ağacların bağda yerləşdirilməsi sxemi, bağların becərilməsi, gübrələnməsi, suvarılması və digər aqrotexniki tədbirlərin əsaslı surətdə dəyişdirilməsini tələb edir.*

*Müasir dövrdə bağçılığın intensivləşdirilməsinin texnoloji mahiyyəti dəqiq müəyyən edilmişdir.*

*Bağçılığın intensiv inkişafı vahid sahədən daha yüksək meyvə götürmək deməkdir. Odur ki, meyvəçilik bağ sahələrinin artırılması hesabına deyil, hər bir hektar da ağacların sayını artırmaq, kompleks aqrotexniki tədbirləri vaxtında və düzgün tətbiq etməklə daha yüksək məhsul götürmək hesabına inkişaf etdirilməlidir.*

*Bağçılıqda intensivləşdirmənin ən vacib məsələlərindən biri, meyvə bağlarında cərgə aralarının saxlanması və becərilməsində yeni üsulların fermer təsərrüfatlarında tövsiyyə edilməsidir.*

*Bağlarda cərgəaraları Qara herik, Sideral herik, qısa müddətli çimləmə və təbii çəmənlik altında saxlanmaqla optimal variant seçilməlidir.*

***Açar sözlər**: alma sortları, iqtisadi səmərəlilik, cərgə arası torpağın saxlanması, üsullar.*

Bar verən alma bağlarında cərgəarası torpağın yeni mütərəqqi üsullarla becərilməsi və saxlanmasının əhəmiyyətini nəzərə alaraq, bağlarda cərgə aralarının saxlanması və becərilməsinə dair elmi tədqiqatlar Azərbaycan Kənd Təsərrüfat Nazirliyi Meyvəçilik və Çayçılıq Elmi Tədqiqat İnstitutunun H.Zərdabi adına Elmi-Təcrübə Bazasında 7x5m əkin sxemi ilə əkilmiş 1,6 hektar məhsuldar alma bağında Qolden Delişes və Red Delişes alma sortları üzərində tədqiqatlar aparılmışdır.

Təcrübələr 2 fonda: (Təbii çəmənlik və Qara herik) aparılmışdır. Hər fon daxilində 7 variant sınaqdan çıxarılmışdır.

**1.Fon təbii çəmənlik:**

1.1. Nəzarət (gübrəsiz) variantı;

1.2. Fon+40 ton/ha üzvi gübrə (peyin – 3 ildə 1 dəfə) verilir;

1.3. Fon+Urojay gübrəsi $N_{16}$ $P_{16}$ $K_{16}$ təsiredici maddə hesabı ilə payızda və yazda gövdə ətrafı dairələrə 750 kq/ha fiziki çəkidə verilir;

1.4. Fon+$N_{120}P_{120}K_{120}$;

1.5. Fon+Bolver yarpaq gübrəsi (1000 litr suya 3 litr Bolver məhlulu əlavə edilərək kökdənkənar yemləmə-2 dəfə) aparılır;

1.6.Fon+Elfer Kombi (1000 litr suya-2 litr Elfer Kombi məhlulu əlavə edilərək kökdənkənar yemləmə-2 dəfə) aparılır;

1.7. Fon+Sintetik şəffaf və ya tutqun rəngli plonka ilə gövdə ətrafı ağac dairələrində mulçalama aparılır.

**II. Fon Qara herik:** Bu fonda da təbii çəmənlik fonunda olan 7 variant təkrar olunmuşdur.

**Tədqiqatın əsas məqsədi** optimal variantı müəyyən edərək alma sortlarının iqtisadi səmərəliliyinə cərgə arası torpağın saxlanması üsullarının təsirini aydınlaşdırmaqdır.

**Nəticələrin təhlili.** Respublikamızın Quba-Xaçmaz bölgəsində Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun H.Zərdabi adına Elmi-Təcrübə Təsərrüfatında məhsuldar alma bağlarında cərgəarası torpağın saxlanması üsullarının optimal variantı işlənib hazırlanmışdır.

Tədqiqat nəticəsində cərgə arası torpağın saxlanması üsullarının alma sortlarının iqtisadi səmərəliliyinə təsiri öyrənilərkən məlum olmuşdur ki, cərgə arası torpağın saxlanmasının Qara herik fonunda Sintetik plyonka ilə mulçalama optimal variantı alma sortlarının hər hektarından məhsuldarlığın artırılmasına, meyvənin satış qiymətlərinə, satışdan gələn pul gəlirinin artmasına, bir hektardan mənfəətin əldə edilməsinə və rentabellik səviyyəsinə təsir edir. Bunu cərgəarası torpağın saxlanması üsullarının alma sortlarının iqtisadi səmərəliliyinə təsiri cədvəlindən görmək olar.

Cədvəldən göründüyü kimi, Qolden Delişes sortunda Təbii çəmənlik fonunda variantlar arası iqtisadi göstəricilər aşağıdakı kimi olmuşdur. Bir hektardan məhsuldarlıq Təbii çəmənlik fonunda, nəzarət (gübrəsiz) variantında 63,0 sentner, üzvi gübrə

(peyin) variantında 70,0 sentner, Urojay gübrəsi ($N_{16}$ $P_{16}$ $K_{16}$) variantında 70,0 sentner olmuşdur.

Məhsuldarlıq variantlar arasında nəzarətə nisbətən müqayisədə üzvi gübrə (peyin) varinatında 7 sentner, Urojay gübrəsi variantında 7 sentner, məhsulun maya dəyəri nəzarət variantında 27 manat, üzvi gübrə (peyin) variantında 25 manat və Urojay gübrəsi variantında 25 manat, bir hektara çəkilən xərc 1701-1750 manat, bir sentner məhsulun orta satış qiyməti 51 manat, məhsulun satışdan gələn pul gəliri 3024-3570 manat, bir hektardan mənfəət 1323-1820 manat və rentabellik səviyyəsi 77,4-104,0% arasında dəyişir.

**Alma sortlarının iqtisadi səmərəliliyinə cərgəarası torpağın saxlanması üsullarının təsiri (orta rəqəmlər)**

| s/s | Variantlar | Alma sortları | Əkin sxemi, m | 1 ha-da məhsuldarlıq, sent | 1 sent məhsulun maya dəyəri, man | 1 ha-ya çəkilən xərc, man | 1 sent məhsulun orta satış qiyməti, man | Satışdan pul gəliri, man | 1 hadan mənfəət, man | Rentabellik səviyyəsi, % |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | Nəzarət (gübrəsiz) | Qolden Delişes | 7x5 | 63 | 27 | 1701 | 51 | 3024 | 1323 | 77,4 |
| 2 | Üzvi gübrə (peyin) | Qolden Delişes | 7x5 | 70 | 25 | 1750 | 51 | 3570 | 1820 | 104,0 |
| 3 | Urojay gübrəsi $N_{16}P_{16}K_{16}$ | Qolden Delişes | 7x5 | 70 | 25 | 1750 | 51 | 3570 | 1820 | 104,0 |
| 4 | $N_{120}P_{120}K_{120}$ | Red Delişes | 7x5 | 80,5 | 25 | 2013 | 51 | 4106 | 2093 | 104,0 |
| 5 | Bolver yarpaq gübrəsi | Red Delişes | 7x5 | 87,5 | 24 | 2100 | 51 | 4463 | 2363 | 112,5 |
| 6 | Elfer Kombi yarpaq gübrəsi | Red Delişes | 7x5 | 87,5 | 24 | 2100 | 51 | 4463 | 2363 | 112,5 |
| 7 | Sintetik plyonka ilə mulçalama | Red Delişes | 7x5 | 105,0 | 23 | 2415 | 51 | 5355 | 2940 | 121,7 |
| **Qara herik fonunda.** | | | | | | | | | | |
| 1 | Nəzarət (gübrəsiz) | Qolden Delişes | 7x5 | 52,5 | 30 | 1575 | 51 | 2677 | 1102 | 70,0 |
| 2 | Üzvi gübrə (peyin) | Qolden Delişes | 7x5 | 77 | 25 | 1925 | 51 | 3927 | 2002 | 104,0 |
| 3 | Urojay gübrəsi $N_{16}P_{16}K_{16}$ | Qolden Delişes | 7x5 | 77 | 25 | 1925 | 51 | 3927 | 2002 | 104,0 |
| 4 | $N_{120}P_{120}K_{120}$ | Red Delişes | 7x5 | 101,5 | 23 | 2335 | 51 | 5176 | 2841 | 121,7 |
| 5 | Bolver yarpaq gübrəsi | Red Delişes | 7x5 | 112,0 | 22 | 2464 | 51 | 5712 | 3248 | 131,8 |
| 6 | Elfer Kombi yarpaq gübrəsi | Red Delişes | 7x5 | 87,5 | 24 | 2100 | 51 | 4463 | 2363 | 112,5 |
| 7 | Sintetik plyonka ilə mulçalama | Red Delişes | 7x5 | 115,5 | 22 | 2541 | 51 | 5890 | 3349 | 131,8 |

İqtisadi göstəricilərə görə Təbii çəmənlik fonunda Red Delişes alma sortunun variantlar arasında məhsuldarlığı nəzarətə nisbətən müqayisədə $N_{120}$ $P_{120}$ $K_{120}$ variantında 17,5 sentner, Bolver yarpaq gübrəsi variantında 24,5 sentner, Elfer Kombi yarpaq gübrəsi variantında 24,5 sentner, Sintetik plyonka ilə mulçalama variantında nəzarətə nisbətən 42,0 sentner, məhsulun maya dəyəri 23-25 manat, bir hektara çəkilən xərc 2013-2415 manat, bir sentner məhsulun orta satış qiyməti 51 manat, məhsulun satışdan gələn pul gəliri 4106-5355 manat, bir hektardan mənfəət 2093-2940 manat və rentabellik səviyyəsi 104,0-121,7% arasında olmuşdur. Göründüyü kimi Təbii çəmənlik fonunda Red Delişes alma sortu variantlar arasında Sintetik plyonka ilə mulçalama variantında yüksək məhsuldarlığa malik olub digər variantlardan fərqlənir.

Qara herik fonunda Qolden Delişes alma sortunun bir hektarından variantlar arası məhsuldarlığı nəzarətə nisbətən 52,5 sentnerlə 77 sentner arasında, Red Delişes sortunda 101,5-115,5 sentner, məhsulun maya dəyəri Qolden Delişes sortunda 25-30 manat, bir hektara çəkilən xərc 1575-1925 manat, bir sentner məhsulun orta satış qiyməti 51 manat, satışdan gələn pul gəliri 2677-3927 manat, bir hektardan mənfəət 1102-2002 manat və rentabellik səviyyəsi 70, 0-104,0% arasında olmuş, həmin sort və həmin fonda $N_{120}P_{120}$ $K_{120}$ variantında bir hektardan məhsuldarlıq 101,5 sentner, Bolver yarpaq gübrəsi variantında 112,0; Elfer Kombi yarpaq gübrəsi variantında 87,5 və Sintetik plyonka ilə mulçalama variantında 115,5 sentner məhsul alınmışdır ki, bu da nəzarət variantına nisbətən $N_{120}P_{120}$ $K_{120}$ variantı 42,0 sentner; Bolver yarpaq gübrəsi variantı 59,5 sentner, Elfer Kombi yarpaq gübrəsi variantı 35,0 sentner və Sintetik plyonka ilə mulçalama variantı 63,0 sentner çox məhsul alınmışdır. Məhsulun maya dəyəri Red Delişes sortunda göstərilən dörd variantda 22-24 manat, bir hektara çəkilən xərc 2100-2541manat, bir sentner məhsulun orta satış

qiyməti 51 manat, məhsulun satışdan gələn pul gəliri 4106-5355 manat, bir hektardan mənfəət 2093-2940 manat və rentabellik səviyyəsi 104,0-121,7% arasında olmuşdur. Göründüyü kimi Təbii çəmənlik fonunda Red Delişes alma sortu variantlar arasında Sintetik plyonka ilə mulçalama variantında yüksək məhsuldarlığa malik olub digər variantlardan fərqlənir.

Qara herik fonunda Qolden Delişes alma sortunun bir hektarından variantlar arası məhsuldarlığı nəzarətə nisbətən 52,5 sentnerlə 77 sentner arasında, Red Delişes sortunda 101,5-115,5 sentner, məhsulun maya dəyəri Qolden Delişes sortunda 25-30 manat, bir hektara çəkilən xərc 1575-1925 manat, bir sentner məhsulun orta satış qiyməti 51 manat, satışdan gələn pul gəliri 2677-3927 manat, bir hektardan mənfəət 1102-2002 manat və rentabellik səviyyəsi 70,0-104,0% arasında olmuş; həmin sort və həmin fonda $N_{120} P_{120} K_{120}$ variantında bir hektardan məhsuldarlıq 101,5 sentner, Bolver yarpaq gübrəsi variantında 112,0; Elfer Kombi yarpaq gübrəsi variantında 87,5 və Sintetik plyonka ilə mulçalama variantında 115,5 sentner məhsul alınmışdır ki, bu da nəzarət variantına nisbətən $N_{120} P_{120} K_{120}$ variantı 42,0 sentner; Bolver yarpaq gübrəsi variantı 59,5 sentner, Elfer Kombi yarpaq gübrəsi variantı 35,0 sentner və Sintetik plyonka ilə mulçalama variantı 63,0 sentner çox məhsul alınmışdır. Məhsulun maya dəyəri Red Delişes sortunda göstərilən dörd variantda 22-24 manat, bir hektara çəkilən xərc 2100-2541 manat, bir sentner məhsulun orta satış qiyməti 51 manat, satışdan gələn pul gəliri 4463-5890 manat, bir hektardan mənfəət 2363-3349 manat və rentabellik səviyyəsi 112,5-131,8% təşkil etmişdir.

Cədvəldən aşkar göründüyü kimi Təbii çəmənlik fonuna nisbətən Qara herik fonunda məhsuldarlıq yüksək olmaqla bərabər bir sentner məhsulun maya dəyəri digər variantlardan fərqli olaraq Sintetik plyonka ilə mulçalama variantında ucuz başa gəlmiş, satışdan gələn pul gəliri, bir hektardan alınan mənfəət və rentabellik səviyyəsi daha çox olmuşdur.

Sortlar və variantlar arası iqtisadi səmərəliliyi müqayisə edərək belə ümumi nəticəyə gəlirik ki, tədqiq olunan variantlar arasında Qara herik fonunda Sintetik plyonka ilə mulçalama variantı Red Delişes alma sortunda iqtisadi cəhətdən səmərəli olub, rentabellik səviyyəsi 131,8% təşkil edir ki, bu da digər variantlardan üstündür. Bu üstünlük həmçinin Təbi çəmənlik fonunda da həmin variantda təkrar olunur və rentabellik səviyyəsi 121,7 faizə bərabərdir.

**Nəticə.** Alma sortlarının iqtisadi səmərəliliyinə cərgə arası torpağın saxlanması üsullarının təsirini öyrənərək belə ümumi nəticəyə gəlirik ki, tədqiqat aparılmış variantlar arasında Qara herik fonunda Sintetik plyonka ilə mulçalama variantı Red Delişes alma sortunda iqtisadi cəhətdən səmərəli olub, rentabellik səviyyəsi 131,8% təşkil edir ki, bu da digər variantlardan üstündür.

**ƏDƏBİYYAT**

1.Kərimov T.C., R.R.Heydərli. Cərgə arası torpağın saxlanmasının armud sortlarının məhsuldarlığına və iqtisadi səmərəliliyinə təsiri. (Azərbaycan Elmi-Tədqiqat Bağçılıq və Subtropik Bitkilər İnstitutunun əsərləri məcmuəsi, XVI cild), Bakı, 2009, s.28-31. 2.Məmmədov C.Ş., T.C.Kərimov. Alma bağlarda becərmə işlərinə dair təlimat. Bakı, "Müəllim" nəşriyyatı, 2013, 24s. 3.Məmmədov C.Ş., T.C.Kərimov, B.O.Quliyev, X.Ş.Balakişiyev. Məhsuldar alma bağlarında cərgə arası torpağın yeni mütərəqqi üsullarla becərilməsi və saxlanması. (Azərbaycan Aqrar Elm jurnalı). Bakı, 2010, №6, s. 40-44. 4. Qurbanov İ.S., V.M.Əliyev, B.G.Babayev.- Meyvəçilik. Bakı-2009.234 s. 5.Qurbanov İ.S., V.M.Əliyev, M.M.Qurbanov, İ.A.Bəyəhmədov. Azərbaycanda meyvəçiliyin müasir vəziyyəti və inkişaf perspektivləri. Azərbaycan Aqrar Elmi, №3, 2014, s.32-34.

**Влияние содержания междурядий сада на экономическую эффективность сортов яблони.**

**Т.Д.Керимов**

Установлено, что оптимальным вариантом является система содержания почвы мульчирование с использованием синтетической пленки в яблоневых садах.

На фоне черного пара, в варианте мульчирования с содержанием в ряда синтетической пленки в сорте яблони «Ред Делишес», который превосходит другие варианты экономически эффективно и рентабельно на 131,8 %.

***Ключевые слова:****Сорта яблони, экономическая эффективность, систем содержания почвы в междурядий, способы.*

**Effect of row spacing on the economic efficiency of the garden varietes of apple**

**T.C.Karimov**

Found that the best option is a system content of soil mulching with plastic film in apple orchards.

On the plowed black background, in the embodiment of mulching with the content in the ranks of the synthetic film in apple variety of "Red Delicous", which is superior to order options cost effectively and profitably by 131.8%.

***Key words:*** *apple varietes, economic efficiency, range soil storage system, methods.*

**e-mail: az.mçeti@.rambler.ru**